# Primitiv və Modern Ədalət: Anarxist və Dövlətli Cəmiyyətlərdə Mübahisələrin Həlli

written by Bob Black Bob Blek
Bu gün anarxistlərin üzləşdikləri əsas çətinliklərdən biri dövlətsiz cəmiyyətlərdə cinayətkarlarla necə rəftar ediləcəyini izah etməkdir: anarxist cəmiyyətlərdə mübahisə həlli proseduru necə olacaq və dövlətin olmadığı bir şəraitdə cinayətkarları kim tutub cəzalandıracaq? İstənilən növ cəmiyyətdə fərdlərin müxtəlif problemlərinin olacağını və onların mürəkkəb mübahisə həlli prosedurları tələb edəcəyini güman etmək heç də mübahisəli olmazdı. Bu baxımdan, anarxistlərdən dövlətsiz cəmiyyətdə bu prosedurun təxmini təsvirini tələb etmək məntiqsiz deyil. Anarxizm iyerarxiya, iqtidar və məcburetməyə qarşı olduğundan belə cəmiyyətdə fərdlər və ya qruplar arasındakı mübahisələr də bu eqalitarian (bərabərlik) dəyərlər əsasında həll edilməlidir. Ənənəvi olaraq, əksər klassik anarxist filosoflar cinayətkarların cəzalandırılmasına ehtiyac olmadığını və onlarla insani rəftar edilməli olduğunu deyirlər. Lakin onların heç biri azad anarxist cəmiyyətlərdəki mübahisə həlli prosedurunu təsvir etmirlər. Anarxist filosofların öz ideal cəmiyyətlərinin planını verməkdən yayılmaqları anarxist nəzəriyyənin ən zəif cəhəti hesab edilir. Mübahisə həllinin dəqiq proseduru aydın olmadığından anarxizmin tənqidçiləri onun stabilliyə yox, xaosa gətirib çıxaracağını iddia edirlər.

Peşəkar hüquqşünas və anarxist filosof olan Bob Blek anarxist cəmiyyətin cinayətkarlarla necə davranacağını anlamağımız üçün primitiv dövlətsiz cəmiyyətlərdəki təcrübələrə baxmağımızı təklif edir. İstənilən növ cəmiyyətdə mübahisə həlli prosedurunun adətən dörd forması olur – danışıqlar,

vasitəçilik, arbitraj və hökm. İlk iki metod könüllülük prinsipinə əsaslansa da, sonuncu iki metod dövlət orqanları tərəfindən qeyri-könüllülük prinsipi ilə tətbiq edilir. Anarxizmin yuxarıda qeyd edilən prinsipləri əsasında belə görünür ki, anarxist cəmiyyət fərdlər və ya qruplar arasındakı istənilən problemi həll etmək üçün yalnız könüllü metodlardan istifadə etməyə iddialıdır. Bəs necə? Pritimiv dövlətsiz cəmiyyətin istifadə etidiyi danışıqlar və vasitəçilik kimi könüllü metodları mürəkkəb modern cəmiyyətlərə necə tətbiq etmək olar? Yüksək səmərəlilik ilə eyni texnikaları tətbiq etmək mümkündürmü? Hansı növ sosial struktur könüllü mübahisə həlli metodları üçün daha uyğundur? Və bizim mürəkkəb modern cəmiyyətlərimizin sosial strukturu primitiv dövlətsiz cəmiyyətlərin sosial struktundan nə dərəcədə fərqlənir? Blek məqaləsində bu məsələləri müzakirə edir.

İlkin Hüseynli

**Giriş**

Bütün cəmiyyətlərdə insanlar arasında problemlər olur. Əksər cəmiyyətlərin mübahisələri həll etmək proseduru var. Bura danışıqlar, vasitəçilik, arbitraj və hökm daxildir.[1] Saf formada götürsək, danışıqlar və vasitəçilik könüllüdür. Arbitraj və hökm isə qeyri-könüllüdür.[2] Etnoqrafik dəlillər “olduqca güclü şəkildə” göstərir ki, “vasitəçilik fəaliyyətinə zidd olan hökm qərarvermə üsulu, demək olar, tamamilə mərkəzi hökumətin mövcud olduğu cəmiyyətlərə xasdır.”[3] Anarxist cəmiyyətlər könüllü cəmiyyətlər olduğundan könüllü mübahisə həlli prosedurları anarxist cəmiyyətlər üçün, qeyri-könüllü prosedurlar da dövlətli cəmiyyətlər üçün səciyyəvidir. Bütün cəmiyyətlərdə özünə yardım vasitələri də olur.[4] Bunlar adətən ictimai nəzarət kimi təsirli olur, amma güc ilə ədalət təsadüfən üst-üstə düşəndə onlar ədaləti də təmin edirlər. Primitiv cəmiyyətlərdə ən yüksək prioritet ədalət yox, sülhdür.

Könüllü prosedurlar münaqişələrə həll edilməli olan problemlər

kimi yanaşır. Onlar tərəflər arasında sosial harmoniyanı bərpa edəcək, ya da ən azından sülhü qoruyacaq razılaşmanın əldə edilməsinə səy göstərirlər. Qeyri-könüllü prosedurlar qanun və nizamı, cinayət və cəzanı, müqavilələrin pozulmasını və ümumilikdə doğru və yanlışı özündə ehtiva edir. Bu fərqliliklər mənə xüsusilə maraqlı gəlir, çünki mən dövlətli cəmiyyətdə yaşayan bir anarxistəm. Həmçinin, mən keçmiş hüquqşünasam. "Vəhşi qəbilələrin həyatından öyrənə biləcəyimiz ən əhəmiyyətli şeylərdən biri polis olmadan cəmiyyətdə asayişin qoruna biləcəyidir" deyə yazan E.B. Teylor ilə razılaşmamaq mümkün deyil.[5]

İddia edirəm ki, könüllü prosedurlar dövlətli cəmiyyətlə müqayisədə sülhsevər başqa alternativin olmadığı primitiv cəmiyyətlərdə daha təsirli olar. Lakin istənilən cəmiyyətdə tərəflərin şəxsi razılığı ilə əldə edilmiş ədalət məhkəmələrin ədalətindən daha təsirli ola bilər, çünki münaqişəni sonlandırmağın ən dəqiq yolu hər iki tərəfi nəticənin əldə edildiyinə inandırmaqdır.[6] Sual hansı nəticənin daha inandırıcı olduğudur. İstənilən sistemdə nəticənin ədalətli olduğuna inanmayan şikayətçilər həmişə olacaq və bəzi konfliktlər sonradan yenə davam edəcək.

Martin Şapiroya görə, hökm həmişə hakimiyyətin legitimliyi problemlini qaldırır, çünki məğlub tərəf hesab edə bilər ki, o, düşmənlə əlbir olan güc sahibləri tərəfindən təklənib hücuma məruz qalıb.[7] Politoloq Şapiro başa düşmür ki, dövlət özü-özlüyündə hakimiyyətin legitimliyi problemini qaldırır. Siyasi filosoflar bəzən yarı günahkarlıq hissi ilə olsa da "ictimai müqavilə"ni mühakimə üçün əsas götürərək, bu məsələdə hakimiyyətə haqq qazandırıb onun legitimliyini əsaslandırırlar. İctimai müqavilə nəzəriyyəsinin müxtəlif versiyalarının hətta bir çox filosofun da etiraf etdiyi absurdluqlarını kənara qoysaq, buradakı məqsədim naminə təkcə bir əsas gümana – razılıq [qarşı tərəfə] hakimiyyət verir – diqqəti çəkmək istəyirəm. İddiaya görə dövlətli cəmiyyətdə "səssiz razılıq" istənilən dövləti legitimləşdirir: demokratik, faşist, dövlətli kommunist, teokratik və s.[8]

Təbii ki bu səssiz “razılıq” heç də gündəlik həyatda başa düşdüyümüz hansısa xüsusi davranışa və davranış haqqında həqiqi, şüurlu, fərdi və məlumatlı razılığa oxşamır. Evliliyə səssiz razılıq iddiasını təsəvvür etməyə çalışın. Hökumətdən fərqli olaraq evlilik həqiqi müqavilədir! Lisander Spuner kimi anarxistlər və Herbert Spenser kimi libertarianlarla[9] yanaşı nə anarxist, nə də libertarian olan Deyvid Yum da səssiz razılıq anlayışının səhv olduğunu göstərib.[10]

“Səssiz razılıq” topdan razılıqdır, təyin olunmuş razılıqdır: dövlətə və bəlkə də onun etdiyi ən az pis şeylərdən biri olan hökm də daxil olmaqla dövlətin etdiyi hər şeyə verilmiş razılıqdır. Məğlubun tamamilə xəbərsiz olduğu (çünki bu sadəcə olaraq “səssiz”dir) hər şeyə verilmiş bu səssiz razılıq nəinki cinayət işlərində, heç mülki işlərdə də məğlub tərəfi sakitləşdirəcək bir şey deyil. Bunun əksinə, anarxist cəmiyyətlərdə razılıq topdan yox, pərakəndədir. Könüllü davranışlar adətən başqalarının qeyri-rəsmi təsiri altında verilsə də, hər şey könüllüdür. İndi müzakirə edəcəyim bir məsələdə bu daha aydın olacaq. Prinsip etibarilə anarxist cəmiyyətlərdə tərəflərdən biri və ya hər ikisi vasitəçiliyi rədd edə bilər (bu nadirən baş verir), istənilən tərəf vasitəçilik nəticəsində əldə edilmiş hesablaşmanı da rədd edə bilər, lakin bu arabir baş verir. Bu, xüsusi hadisədə xüsusi prosedurlara və hesablaşmalara verilən razılıqdır. Bu, həqiqi razılıqdır. Ümumi olaraq könüllü vasitəçilik proseduru əsasında əldə edilmiş hesablaşmaların hökm proseduru əsasında həll edilmiş münaqişələrdən daha təsirli olduğunu güman etmək məntiqlidir.

Digər bir çox müasirləri kimi əksər müasir anarxistlər də dövlətsiz primitiv cəmiyyətlərdə mübahisələrin necə həll edildiyindən xəbərsizdirlər. Və onlar özlərinin modern anarxist cəmiyyətlərində mübahisələrin necə həll ediləcəyindən nadirən söhbət açırlar. Anarxistlərin ciddi qəbul edilməməsinin əsas səbəbi budur. Anarxistlər üçün bir dərsim var. Amma həmçinin müasir hüquq islahatçıları üçün də bir dərsim var. Misal versək, bir neçə primitiv dövlətsiz

cəmiyyətlərdə mübahisələrin necə həll edildiyini müzakirə edəcəyəm. Sonra isə amerikan hüquq sistemində iddia edildiyinə görə bir Afrika qəbilə cəmiyyətinin mübahisə prosesindən ilhamlanmış islahat cəhdindən bəhs edəcəyəm. İdeya bu idi ki, hakimlərin və prokurorların razılığı ilə ABŞ hüquq sisteminin alt qatına vasitəçilik daxil edilsin. Cəhd uğursuz oldu. Belə bir nəticəyə gələcəyəm ki, mahiyyət etibarilə zorakı olan hüquq sisteminə mahiyyətcə könüllü proseduru daxil etmək mümkün deyil.

Əgər mən düz deyirəmsə, anarxizmin xeyrinə olan arqument onun ən zəif nöqtəsindən – dövlət olmadan təhlükəsiz və dinc cəmiyyəti necə təmin etmək olar – güclənir. Əksər anarxistdən fərqli olaraq bir çox antropoloq bu müvəffəqiyyətlə bağlı fikir bildirib.[11] Anarxist "primitivizm" haqqındakı ziddiyyət, demək olar, tamamilə əhəmiyyətsizdir, çünki bu texnologiya, əhali və sivilizasiyanın müxtəlif (din, yazı, pul, dövlət, sinif sistemi, ali mədəniyyət və s.) müsbət və mənfi tərəfləri barədə gedir. Primitiv, ya da modern, *istənilən* anarxist cəmiyyətdə primitiv anarxiyanın bəzi struktural xüsusiyyətlərini həyata keçirməyin mümkün – bəlkə də əhəmiyyətli elementi – olması ehtimalı heç bir anarxistin diqqətini çəkməyib. Primitivistlər anarxistləri primitivlərə baxıb onlardan öyrənməyə çağırır[12] – amma *nəyi* öyrənməyə? Necə çadır qurmaq?

**Mübahisə həlletmə formaları**

Fərdlər arasında konflikt yarandıqda – başqalarının sonradan bura daxil olub-olmamasından asılı olmayaraq – ilk olaraq və adətən konflikt şəxsi müstəvidə müzakirə ilə həll edilə bilər. Danışıqlar, ikitərəfli prosedur şübhəsiz ki ümumbəşəri[13] bir praktikadır: "bu, bütün dünyada bir çox sadə cəmiyyətlərdə əsas mübahisələri həll etməyin başlıca formasıdır."[14] Burada qəbul etdiyim terminologiyaya[15] görə konflikt danışıqlar vasitəsi ilə həll edilərsə, deməli burada mübahisə yox, konflikt var imiş. İlk mərhələdə *şikayət* olur: kimsə özünə qarşı səhv [və ya ədalətsizlik] edildiyini düşünür. Əgər o öz

şikayətini günahkara desə, şikayətçi *iddia* irəli sürmüş olur. Şikayətçi qane olmayanda onun bir neçə alternativi olur. O, aktiv və ya passiv şəkildə birtərəfli addım ata bilər. Aktiv yol, yəni "özünə yardım" günahkarı məcbur edir, ya da cəzalandırır, amma təəssüf ki, bu yolu seçmək əksər hallarda mümkün olmur.[16] Lakin kasıb məhəllələrdəki kimi həqiqi alternativlərin nadirən mövcud olduğu yerlərdə bəzi insanlar şiddətli birtərəfli hücum yoluna müraciət edirlər.[17] Passiv yol "susub dözmək", yəni təslim olmaq, heç nə etməməkdir.[18] Bir çox şikayətlər mübahisə səviyyəsinə qalxmaq əvəzinə bu çökəkliyə düşür. "Şəhər bələdiyyəsi," ya da çox güclü zülmkarlarla "dava edə bilməzsən." Susub dözmək – yayınmaq – da ümumbəşəri praktika ola bilər, amma bu, xüsusilə ən sadə və ən mürəkkəb cəmiyyətlər üçün xasdır: ovçu-yığıcılar arasında və həmçinin kəskin güc bərabərsizliyinin mövcud olduğu dövlətli sinfi cəmiyyətlərdə.[19]

Danışıqlar nə qədər faydalı olsa da heç də həmişə problemi həll etmirlər. Bu metodla həmişə razılıq əldə etmək olmur. Tərəflər çıxılmaz vəziyyətə düşə bilərlər. Lakin tərəflərin sayının üç olduğu hallarda qərar əksəriyyətin səsi və ya vasitəçilik ilə qəbul edilə bilər.[20] Yaxud da emosionallıq o qədər yüksək həddə çıxa bilər ki, tərəflər bir-biri ilə danışmaqdan imtina etsin, ya da danışsalar belə müzakirələri şiddətli qarşıdurma ilə nəticələnsin.[21] Və danışıqlar həmişə ədalətli olmur, çünki tərəflər heç vaxt dəqiqliklə bərabər olmurlar. Tərəflərdən birinin daha güclü şəxsi keyfiyyətləri, yüksək sosial statusu, daha çox sərvəti, ya da sosial əlaqələri olarsa və tərəflər aralarındakı mübahisəni həll edə bilsələr, çox güman bu razılıq güclü tərəfin istəklərinə daha uyğun olacaq. Üçüncü tərəfin – vasitəçi, arbitr, ya da hakim qismində – mübahisənin həlinə cəlb edilməsinin səbəblərindən biri bitərəf və azad iştirakçı vasitəsi ilə prosesi bərabərləşdirmək məqsədidir. Lakin bitərəflik vasitəçilik üçün ideal olsa da, bu, heç də həmişə reallaşmır.[22] Üçüncü tərəf də mübahisənin həllində razılıq əldə etmək üçün görüntü xarakterli ola bilər və danışıqlar ikitərəfli olarsa, bu

razılıq tərəflərdən birinin digərinə təslim olması kimi görünə (və bəlkə də məhz təslim olması ola) bilər.

Əgər qurban (özünü bu cür görən şəxs) şikayətini üçüncü tərəfə desə, deməli, məsələ artıq cəmiyyətin maraqlarını az da olsa özündə ehtiva edən *mübahisə*dir. Mübahisə “aktivləşdirilən şikayətdir.”[23] Birbaşa və ya dolayı formada fərd və cəmiyyətdən asılı olaraq müraciət polis çağırmaq, məhkəmə qarşısında iddia qaldırmaq, ya da sadəcə olaraq tanıdığın insanlara şikayət etmək ola bilər. Bu, məhkəməyə – hüquq və ya ictimai fikir məhkəməsinə getmək ola bilər. Vasitəçilik (könüllü) və hökm (icbari) danışıqlar və özünə yardımdan fərqlənir, çünki birincilərə mübahisənin nəticəsində heç bir şəxsi marağı olmayan üçüncü tərəf də daxil edilir.[24] Vasitəçilik kömək edilən danışıq hesab edilə bilər.[25]

Bəzi primitiv cəmiyyətlərdə – ələlxüsus da kiçik ölçülü cəmiyyətlər, ovçu-yığıcılar – standart [ənənəvi] mübahisə həlli prosedurları olmur. Bəzi iddialara baxmayaraq,[26] “üçlü” mübahisə prosesləri ümumbəşəri deyil. Belə cəmiyyətlərdə nə hakimiyyət olur, nə də mübahisələri həll etmək və ya razılığa gəlməyi asanlaşdırmaq üçün prosedur: nə vasitəçi, nə də arbitr.[27] Ona görə də buşmenlərdə fərdlərarası qarşıdurmalar düşərgədə adətən qəfil və ictimai olaraq baş verir. Bu qarşıdurmalar sözlü deyişmə və məsxərədən davaya qədər fərqli şəkildə özünü biruzə verir; dava düşdükdə adətən ətrafdakı insanlar tərəfləri ayırsa da, bəzən onlar ölümlə nəticələnir.[28] Mübahisə fərdlər (və onların yaxınları) arasında davamlı düşmənçilik yaratsa, əksər hallarda tərəflərdən biri indiki qrupundan uzaqlaşıb başqa bir qrupa qoşulur; və ya bəzən həmin qrup özü iki yerə bölünür.[29] Bu eskimoslar[30] və Andaman adasının sakinləri[31] kimi ovçu-yığıcı cəmiyyətlərə[32] xas xüsusiyyətdir. Bunları susub dözməyin və ya mübahisədən yayınmağın aktiv formaları hesab etmək olar. Avstraliyadakıların da bəziləri daxil olmaqla bəzi başqa ovçu-yığıcı cəmiyyətlərdə yayınma və ya sürgün formal mübahisə prosedurlarının mümkün nəticələri ola bilərlər. “Ovçu-yığıcı

cəmiyyətlərdə sülh qoruyucuları olur, amma əsasən eqalitarian ictimai təşkilatları sayəsində onlar bir qayda olaraq vasitəçilərdən ciddi şəkildə asılı olmurlar…”[33] Stenli Daymond “cinayət və bəzi şiddət formaları arasındakı ciddi tarixi fərq”ə diqqət çəkir. “Primitiv cəmiyyətlərdə cinayət adətən fərdi müstəvidə strukturlaşır, disassossasiya olmur və buna görə də özü-özünü məhdudlaşdıra bilir.”[34]

Sosial primatlar (yəni hamısı) barədə olan araşdırmalar da göstərir ki, onların da mübahisə həlli praktikaları var. Döyüşlər tez-tez baş verir, amma ovçu-yığıcılarda olduğu kimi primatlarda da kənardakılar adətən döyüşənləri ayırır və əksər hallarda onları barışdırırlar. Biz insanlar arasında olduğu kimi bir neçə dava-dalaşdan sonra primat cütlüklər də adətən cinsi münasibətə girərək barışırlar.[35] Bu ikitərəfli mübahisə həlli mexanizmidir. Barışığın qarşılıqlı davranışla əldə edildiyi başqa ikitərəfli mexanizmlər də mövcuddur. Ən azı 25 qeyri-insan primat cəmiyyətlərində barışıq prosedurları müəyyən edilib.[36] Mənim üçün ən maraqlısı isə odur ki, bəzi primatlarda üçüncü tərəfin iştirak etdiyi mübahisə həlli prosedurları mövcuddur (məsələn, şimpanzelərdə[37] vasitəçilik olur); həmin heyvanlarda danışıq dili olmasa da bir-birləri ilə başqa yollarla kommunikasiyaya girə bilirlər.

Daha mürəkkəb sinfi cəmiyyətlərdə yayınma (ya da, təşkilatlardan “çıxma”[38]) da geniş yayılıb. Buna görə də amerikan suburban əraziləri “yayınma mədəniyyəti” adlanır.[39] Amma modern şəhər cəmiyyətlərində yayınma qismən çətin ola bilər. Məsələn, əri tərəfindən döyülən qadınların həmişə evi tərk etmək imkanları olmur. Və hətta praktiki olaraq mümkün olanda belə yayınma güclü tərəfə baş əymək də ola bilər. Formallaşdırılmış mübahisə həlli prosesinin olmaması 1960-cı illərdə öyrənilən Kalaxari buşmenləri arasında adambaşına düşən qətl sayının həmin dövrdə ABŞ-dakından belə yüksək olmasının yəqin ki əsas səbəbi idi.[40] Yeni Qvineya cəmiyyətini təsvir edən bir etnoqraf yazır ki, üçüncü tərəfin iştirakı ilə mübahisə həlli proseduru olmadığından donuz üstündəki bir mübahisə belə müharibəyə gətirib çıxarda

bilər.[41] Lakin hətta bu mexanizmlərin də olmadığı bəzi primitiv cəmiyyətlər nizamlı və sülh içində yaşayır.[42]

Arbitrajda tərəflər (və ya şikayətçi) hakim kimi hökm verməsi üçün üçüncü bir tərəfə səlahiyyət verir.[43] Bu vasitəçilik deyil: “vasitəçilik və arbitraj konseptual nöqteyi-nəzərdən bir-birinə qətiyyən bənzəmir. Biri insanlara qərar verməsi üçün kömək etməkdirsə, digəri insanların əvəzinə qərar verərək onlara kömək etməkdir.”[44]

Amma bir sıra səbəblərə görə arbitraj hökmlə də eyni şey deyil. Hökmdə qərarverən tərəflərin seçmədiyi rəsmi şəxsdir. Burada üçüncü tərəf (yəni hakim) qanun əsasında hökm çıxarır – bu qanunu tərəflərdən heç biri yazmayıb və tərəflərin qanunları seçmək kimi bir imkanı yoxdur. Amerika Birləşmiş Ştatlarında bəzi iş müqavilələri və bir çox əmək/menecment kollektiv müqavilə sazişləri arbitraj təklif edir. Arbitrlar adətən təlim keçmiş ekspertlər arasından seçilir: Amerika Arbitrlar Assosiyasiyası üzvləri üçün professional peşə etikası olan bir təşkilatdır.[45] Adətən arbitr bu sahədə müəyyən təcrübəsi olan insanlar olur.[46] Arbitr əvvəlcədən tərəflərin özlərinin hazırladıqları qanunu şərh edib icra edir.

Arbitrajın nəticəsinin icrası icbari olduğundan və daha güclü olan tərəfə sərf etdiyindən 1980-ci illərdən bəri bir çox şirkətlər istehlak müqavilələrinə məcburi arbitraj maddələri əlavə edirlər ki, müştərilərin əllərindəki vasitələri məhdudlaşdırıb onların məhkəməyə getməsinin qarşısını alsınlar.[47] Bir Federal Dairə Məhkəməsi belə müqavilələrin ağlabatan olmadığını və buna görə də qanunsuz olduğu hökmünü verdi.[48] Problem o qədər ciddiləşdi ki, Konqresdə bir neçə dinləmələr keçirildi.[49] Heç bir nəticə əldə edilmədi. 2010-cu ildə ABŞ Ali Məhkəməsi istehlak müqavilələrində məhkəmə baxışını istisna edən arbitraj maddəsinin lehinə hökm verdi.[50](Gözlənilən) nəticə kimi “çox az şikayətçi aşağı dəyərli [az pul gətirəcək] iddiaların arxası ilə düşür və böyük şirkətlər bundan xüsusilə faydalanırlar.”[51]

Tez və ya gec, Alternativ Mübahisə Həlli (AMH) metodu həmişə saxtakarlıqla nəticələnir: bu adətən tez baş verir. Lakin primitiv cəmiyyətlərdə arbitraj nadir hallarda olur,[52] buna görə də bu mövzunu daha uzun müzakirə etməyəcəm. Anarxistlər nə vaxtsa bu mövzularda əziyyət çəkib düşünsələr, gələcək üçün planlarında arbitraja yer olub-olmadığı barədə də fikirləşərlər. [Planladıqları] cəmiyyətlər nə qədər mürəkkəb, iyerarxik və zorakı olsa, icbari arbitraja da bir o qədər uyğun olacaq: gizlin yolla dövləti geri qaytarmaq. Bunları yazarkən ağlımda xüsusilə anarxo-sindikalizm var.

Hökm metodunda mübahisə – “iş” [və ya “kazus”] – məhkəməyə verilən şikayət ilə başlayır. Cinayət işlərində şikayətçi şəxsi tərəf yox, dövlət olur, lakin məqalədə hazırkı məqsədimiz üçün cinayət və mülki işlər arasındakı fərqliliklərin əhəmiyyəti yoxdur. Məhkəmə əvvəlcədən qurulmuş daimi tribunaldır. Məhkəmə iclası ictimai rəsmi şəxs, ya da mülki şəxs tərəfindən könüllü surətdə başladılır, lakin bundan sonra şikayətçilər müəyyən şeyləri seçə bilsələr də onlar əvvəlcədən müəyyənləşdirilmiş qaydalarla prosedurlara və hakimin qərarına bağlı olurlar. Onlar həmişə dövlətin əvvəlcədən müəyyən etdiyi qaydalardan asılıdırlar.[53]

İdeal olaraq hökmə xas xüsusiyyətlər bunlardır: “məcburetmə gücü olan üçüncü tərəfdən istifadə, adətən qərarın ‘qalib, ya da məğlub’ tərəfinin olması və hökmün tərəflər arasındakı münasibətləri nəzərə almaqdansa dar bir şəkildə mübahisə doğuran məsələyə fokuslanması tendensiyası.”[54] Qısası, “hakimlər sadəcə olaraq şərh yox, əmr verirlər.”[55]

Hökm metodunda qərar mübahisə tərəflərini tanımayan hakim tərəfindən verilir. Mübahisənin keçmişinin nə olması hakimin vecinə də olmur. O, tərəflər arasındakı münasibəti (əgər varsa) bərpa etməkdə də maraqlı olmur və əslində bu məsələləri nəzərə almalı da deyil. Hakim bitərəf olmalıdır və məhkəmə işində şəxsi marağı olmamalıdır; o, işlə bağlı yekun qərarını “tərəflərin təqdim etdikləri sübutları və əsaslı arqumentləri”[56] əsasında verməli, “ancaq hüquq qaydalarına və məhkəmə

iclasında təqdim edilən dəlillərə əsaslanmalıdır."[57] Digər istənilən hüquq sistemi ilə müqayisədə ABŞ-da daha çoxsaylı və mürəkkəb olan sübutetmə qaydaları ələlxüsus da məhkəmə iclasında sübutların qəbul edilməsi formasını məhdudlaşdırır. Şəxsi müstəvidə olan mübahisələrdən qaynaqlanan işlərin həlli "onların təhqiqatı çərçivəsində sübutetmə qaydaları ilə məhdudlaşdırılır."[58] Donald L. Horovitzin terminologiyası ilə desək məhkəmədəki işlərin mütəmadi olaraq yaranmasına səbəb olan ümumi şəraitin təsvirini verə biləcək "sosial fakt"lardansa, xüsusi işlərin "tarixi faktları"nı tapmaqda ABŞ məhkəmələri daha yaxşıdır.[59]

Bu heç də o demək deyil ki məhkəmələr bu işdə çox yaxşıdır. Yoxsulluq heç vaxt məhkəməyə çıxarılmır; kasıb insanlar məhkəməyə çıxarılır. Reform yönümlü bir hakimin kitabının adına[60] baxmayaraq, məhkəmələr heç vaxt məhkəməyə çıxarılmır. Qanunun aliliyi idealının, yəni institutlaşdırılmış halının hətta öz standardlarına görə belə uğursuz olduğunu göstərmək çətin deyil. Anarxistlər və başqaları bunu dəfələrlə göstəriblər.

Birinci mövzum az-çox primitiv olan cəmiyyətlərdə vasitəçilik praktikası və onun müasir anarxizm üçün nəticələri ilə bağlıdır. Vurğulamaq istəyirəm ki, vasitəçilik könüllüdür. Tərəflər hökm yox, kömək üçün mübahisələrini vasitəçiyə təqdim edirlər. Onlar, ya da bəzən təkcə şikayətçi tərəf vasitəçini seçə bilər və ya vasitəçi "hər iki mübahisə tərəfinin də razılığı ilə iqtidar sahibi biri tərəfindən təyin edilə bilər."[61] Vasitəçilik başlıca olaraq qaydaların icrası ilə məşğul olmasa da tərəflər öz mövqelərini müdafiə etmək üçün qaydalara istinad edə bilər. Hökm metodundan fərqli olaraq vasitəçilikdə yersiz, ya da qəbuledilməz dəlil anlayışı olmur.[62] Tərəflər bir-birlərini çox məsələlərdə günahlandırsalar da vasitəçiliyin məqsədi kimi günahlandırmaq lazım olduğunu müəyyən etmək deyil. Vasitəçiliyin məqsədi həll edilmədiyi təqdirdə, güman ki, sosial problemə çevriləcək fərdlərarası problemi həll etməkdir.

Təsvir etdiyim bu mübahisə həlli formaları ideal olaraq nəzərdə tutulan formalardır. Hüquq filosofu Lon L. Fuller təkid edir ki, bu formalar bir-birinə qarışdırılmamalıdır, çünki hər birinin öz "əxlaq"ı var. Real həyatda onlar adətən saf qalmırlar (Fullerin başa düşmədiyi[63] və indi qeyd ediləcək İfuqao misalı kimi). Hətta olduqca vacib hesab etdiyim könüllü və qeyri-könüllü prosedurlar arasındakı sərhəd bir çox hallarda elə də dəqiq olmur. Güc rəsmi və ya açıq şəkildə zorakı olmayan çox münasibətlərə qarışır.[64] Lakin əgər razılıq [hə/yoxdan fərqli olaraq] dərəcə məsələsi olsa, soruşula bilər ki, "belə bir güc münasibətində nə qədər qeyri-razılıqdan söhbət gedir, həmin miqdarda qeyri-razılıq zəruridirmi? Və sonra da hər bir güc münasibəti bu qaydada sorğulana bilər."[65] Amma belə görünür ki, bu ümumbəşəri doğrudur: "Pripsip etibarilə hökm və vasitəçilik bir-birinə əksdir və onları analitik olaraq ayırmaq olar. Lakin onlar *tarixi* olaraq bir-birinə əks deyil;" "Dünyada formal hökm prosedurları olmayan cəmiyyətlər var, amma legitim vasitəçilik prosedurları olmayan bir dənə də cəmiyyət yoxdur."[66]

Üçüncü tərəfi mübahisənin həllinə cəlb etməyin qaçılmaz bir nəticəsi odur ki, üçüncü tərəfin həmişə özünün gündəliyi olur.[67] Bu, mütləq olaraq pis bir şey deyil. Biznes, əmək və menecment mübahisələri üzrə amerikan arbitrlarını mübahisə tərəfləri seçib onların xidmət haqqını ödəyir; tərəflər onların qərəzli olduğunu düşünsə, arbitrlar öz işlərini itirirlər. Digər bir halda, köməkçi üçüncü tərəf (daha çox iş əldə etmək – yəni pul qazanmaq üçün) yaxşı *problem həll edən* reputasiyası qurmağa can atan məşhur bir qəbilə vasitəçisi ola bilər.[68] Yaxud vasitəçi yenidən seçilmək, ya da daha yüksək vəzifə tutmaq istəyən amerikan hakimi də ola bilər.

Şübhəsiz ki, "hər prosesin, hər təsisatın özünəməxsus fəaliyyət yolu var; hər biri müəyyən nəticəni əldə edə bilmək üçün qərəzlidir; hər biri toxunduğu məsələlərə öz xüsusi izini qoyur."[69] Mübahisə həllindəki üçüncü tərəflər adətən mübahisə tərəflərindən daha yüksək sosial statusa sahib olurlar.[70] Bu, onların təsirli olmaqları üçün əhəmiyyətli

ola bilər: çünki onlar ciddi qəbul edilməlidirlər. Aydındır ki, bu şərtlər altında vasitəçilik olduğu kimi və düşünülmədən birbaşa neo-anarxist cəmiyyətə ixrac edilə bilər. Amma mükəmməlliyə – yəni sosial və iqtisadi bərabərsizliyə – tolerant yanaşmaqla qalmayıb, mükəmməlliyi təşviq etdiyi eqalitarian cəmiyyətə vasitəçilik metodunu düşünərək [ehtiyatlı şəkildə] gətirə bilmədiyimiz müddətcə vasitəçilik heç vaxt yetərincə təsirli ola bilməyəcək.[71]

**Situasiya araşdırmaları**

Etnoqrafik ədəbiyyatdan olan misallarla başlayacam.

***A.Yayla tonqalları[72]***

İndiki Zambiya ərazisində yaşayan Yayla tonqaları arasında baş verən konflikt haqqında həqiqətən baş vermiş bir hekayə ilə başlayıram. Ənənəvi olaraq onlar əkinçilik və maldarlıqla məşğul olublar. 1948-ci ildə onlar hər yana dağılmış, qismən mülklərindən məhrum olmuş və həvəsdən düşmüş fermer və maldarlar idilər. Avropalılar onların ən yaxşı ərazilərinin bir qismini tutmuşdu. Bir pivə məclisində sərxoş cənab A cənab B-ni vurur. Bu adamlar müxtəlif klanların üzvləridirlər və fərqli kəndlərdə yaşayırlar. Təəssüf ki, gözlənilmədən bir neçə gün sonra cənab B ölür.

Bu, dövlətsiz cəmiyyət idi. Lakin bu cinayət bəzi sosial qrupların maraqlarına birbaşa təsir göstərdi. Tonqalar matrilinealdırlar [mülk ana xətti ilə ötürülür; matrilienal cəmiyyət mütləq olaraq matriarxal olmur, çünki birincidə heç də qadının kişi ilə müqayisədə sosial statusu gücləndirilmir]. Əksər məqsədlər üçün bir şəxsin ən vacib əlaqəsi onun məhdud sayda matrilineal qohumları ilə olan yaxınlığıdır. Qadın evlənəndə onun sərvəti qrupa [yəni qadının ərinin qohumlarına] keçir və bu qrup mülkünün çox hissəsini kişi öləndə əldə edir. Həmçinin, üzvlərindən biri cinayət törətdikdə onun əvəzinə kompensasiyanın ödənməsində və ümumiyyətlə intiqamın alınmasında da qrup məsuliyyət daşıyır.

*Atanın* matrilineal qrupu (bu qrup tərif etibarilə oğulun qrupundan fərqlidir) da [mübahisələrin həllində] maraqlı tərəfdir. Bir qədər az dərəcədə olsa da *bu qrup da* öz üzvlərinin cinayətlərinə görə məsuliyyət daşıyır və atanın mülkündən o da pay alır, lakin bu, matrilineal qohum-qruplarının aldığı paydan az olur. Cənab B-ni öldürməklə cənab A Cənab B-nin qrupuna zərər vurdu. Bir neçə səbəbə görə cənab B-nin qrupu Cənab A-dan, ya da onu tapa bilməyiblərsə, cənab A-nın bir qohumundan qisas almadı. Əgər qisas alsaydı, qruplar arasında qan davası başlayacaqdı və hamı bezənə qədər tərəflər bir-birlərini öldürəcəkdilər. Qisas almamaq üçün digər bir səbəb odur ki, Britaniyanın məcbur qəbul etdirdiyi məhkəmə sistemi qisas alan adamı həbs edəcəkdi. Cənab A özü adam öldürməkdə ittiham edilərək həbs edildi.[73] Lakin bu, qruplar arasındakı məsələni həll etmədi. Cənab B-nin qrupu bir üzvünü itirdiyi üçün kompensasiya tələb edirdi.

Qohum qrupların evlilik əlaqələri vardı. Onlar həm də bir-birləri ilə [qarışıq şəkildə] yaşayırdılar. Tonqalar təxmini yüz nəfərlik kiçik kəndlərdə yaşayırdı. Kəndlilərin çoxu eyni mərkəzi qohum qrupun üzvləri deyildilər. Amma digər kəndlilər onların qonşuları və bəziləri də dostları, birgə işlədikləri insanlardı. Qonşu kimi kəndlilər mübahisənin sülh yolu ilə həllində maraqlı tərəflər idilər.

Cənab B-nin ölümündən əvvəl A qrupu B qrupuna barışıq üçün üzrxahlıq edib. Lakin cənab B öləndən sonra bütün əlaqələr kəsilib. Məsələ çox ciddiləşib. Bu, çoxları, ələlxüsus da A və B qrupları ilə bağları olanlar üçün problemlərə səbəb olub. Normal sosial həyat pozulub. Hətta müxtəlif və indi də düşmən qohum qruplarının üzvləri olduqları üçün hətta ərlər və arvadlar bəlkə də bir-birləri ilə danışmağı dayandırıblar. Nəsə etmək lazımdır.

A qrupunun məşhur üzvü cənab C evliliyə görə hər iki qrup ilə [qohumluq] əlaqəsi olan vasitəçi bir nəfər tapdı. Onsuz da A qrupu qəbul edir ki, cənab A günahkar idi. Cənab A problem yaradan adam kimi tanınırdı. O həbsə düşəndə heç kim onun üçün

təəssüf hissi keçirtmirdi. A qrupunu narahat edən məsələ qrupun nə qədər kompensasiya verməli olduğu idi. Məsələ kompensasiya ilə bağlanmalı idi. Qan davası qəbuledilməzdi, çünki hər iki qrupun həddən artıq çox üzvü bir-biri ilə evli və əlaqəli idi. Bu qarşılıqlı əlaqələrə görə hamı mübahisənin sülh yolu ilə həll edilməsini istəyirdi. Modern cəmiyyətlərdə adətən belə əlaqələr mövcud olmur.

Antropoloq Elizabet Kolson razılaşmanın detallarını qeyd etmir, çünki onların əhəmiyyəti yoxdur. Yayla Tonqa cəmiyyətinin ümumi xüsusiyyətləri haqqında məqalə dərc etdiyi üçün bu məsələ ilə bağlı bir məqalə yazıb və onun bəzi oxucuları anarxiya sistemində anarxiyanın necə mövcud ola bildiyini heç cürə anlaya bilmirdilər.[74]

***B.İfuqaolar[75]***

Təxmini 35 il əvvəl şimali Luzonun ifuqaoları arasında bu situasiya qismən başqa cür həll edilərdi. Onlar dövlətsiz, paqan düyü əkinçiləri və kəllə ovçuları idilər. Onlar da anarxistdirlər, amma onların cəmiyyəti Tonqa cəmiyyəti ilə müqayisədə daha çox təbəqələşib. Amerikalı Roy Barton 1906-1917 illər ərzində orada məktəbdə dərs keçib. Onun sələfi olmuş müəllim öldürülüb. O, dili öyrənib ifuqao qanunları ilə bağlı mötəbər kitab yazdı. Mən indi antropoloqların "etnoqrafik indilik" deyə adlandırdıqları indiki zamanda danışacam. Amma hekayə 1903-cü ildən, yəni Amerikan hakimiyyətinin dağlıq yerlərdə möhkəmləndiyi dövrdən əvvəlki hadisələrin dəlillərinə əsaslanır. İspan hakimiyyəti heç vaxt dağlıq yerlərdə təsirli olmayıb.

Gəlin, tonqalarda baş vermiş situasiyanın burada da olduğunu güman edək: içkili adamın bilmədən adam öldürməsi. İçkili adamların dava-dalaşı ifuqaolar arasında da baş verir. Əgər qətl bilərəkdən törədilsəydi, qurbanın qohum qrupu günahkarı öldürərdi.[76] Əgər günahkarın özünə heç nə edə bilməsələr, onda onun qohumlarından birini öldürərlər. Nəticədə qan davası başlayır. Hamı bezənə qədər qana qan, cana can. Lakin içkili

adamın bilmədən törətdiyi qətl adətən vasitəçilik ilə həll edilir və bir qrupun digərinə kompensasiya ödəməsi ilə nəticələnir.

Zərərçəkən tərəf, ya da indiki halda onun qohumları proseduru başladırlar. Şikayətçi *monkalun* adlanan vasitəçini prosesə cəlb edir. Yeganə məhdudiyyət budur ki, vasitəçi tərəflərdən hansısa birinə yaxınlığı olmayan adam olmalıdır. Vasitəçi qismən varlı adam və adətən də uğurlu kəllə ovçusu olur. Daha yaxşı olar ki, onun vasitəçilik təcrübəsi olsun. O, həm də qohumlardan və özündən asılı olan adamlardan hamıdan daha çox dəstək qazana bilər. Əgər vasitəçi nəticə əldə edə bilsə, təqsirləndirilən tərəf ona ödəniş edir və onun prestiji artır. Və hamı kimi o da məsələnin sülh yolu ilə həll edilməsini istəyir.

Nəzəri olaraq təqsirləndirilən tərəfin vasitəçiliyi rədd etmək hüququ var. Praktikada isə *monkalun* ona rədd edə bilməyəcəyi bir təklif verir. Təqsirləndirilən tərəf vasitəçiyə qulaq asmasa "*monkalun* onun evindən çıxmasını gözləyib onu təqib edir və əlində döyüş bıçağı ilə onun qarşısında oturub onu qulaq asmağa məcbur edir." Təqsirləndirilən tərəf çox gözəl başa düşür ki, vasitəçi əvvəllər də baş kəsmək üçün bıçaqdan – bəlkə də məhz bu bıçaqdan istifadə edib. O, vasitəçiliyi qəbul edir.[77]

Bu baş verəndən sonra tərəflər və onların qohumlarının bir-biri ilə danışması qadağan olunur. Bir-birlərinə demək istədikləri sözü, hətta münaqişə ilə əlaqəsi olmasa belə *monkalun* vasitəsi ilə ötürməlidirlər. Məncə, bu çox möhtəşəm fikirdir. Bu yolla tərəflərin söhbət zamanı qəzəblənməsinin və işləri daha da pisləşdirməsinin qarşısı alınır. Vasitəçinin tərəflərin öz xeyrinə hamını manipulyasiya etmək imkanı olur. Konfliktdən bütün kənd ictimai zərər çəkir, çünki onun ucbatından normal sosial münasibətlər və qohum qrupların üzvləri arasındakı iqtisadi əməkdaşlıq pozulur; bu, Yayla tonqalarında da belədir. Buna görə də məsələnin həllində yerli insanların çoxu maraqlı olurlar.

Tərəflərin formal olaraq ayrılması primitiv cəmiyyətlərdə vasitəçiliyin səciyyəvi xüsusiyyəti deyil.[78] Amma vasitəçiliyin mövcud olduğu bütün cəmiyyətlərdə vasitəçinin kommunikasiya diplomatiyası faktiki olaraq sakitləşmə dövrü ilə nəticələnir. Erkən orta əsrlər İrlandiyasında mərhələli mübahisə həlli prosedurları vardı; mərhələlərdən biri "mübahisənin nəzarətdən çıxmasının qarşısını almaq" və təqsirləndirilən tərəfin inadkarlığının "müstəqil hökm"ə gətirib çıxarmasından əvvəl "şəxsi razılaşmanın əldə edilə bilməsi üçün maksimum şərait yaratmaq məqsədi ilə yaradılan 'sakitləşmə dövrü'" adlanırdı.[79] ABŞ-dakı "məhkəmə iclasının gecikməsi" praktikasından şikayət edilir, amma onun da eyni funksiyası ola bilər.

Bəzən ABŞ qanunları mübahisə prosesi dövründə sakitləşmə dövrünün olmasını təmin edir. Dəmiryolu Əmək Qanununa əsasən idarəçilər və işçilər arasındakı mübahisələr vasitəçilik yolu ilə öz həllini tapmayanda Milli Vasitəçilik Palatası vasitəçisi 30 günlük sakitləşmə dövrü əmr edir və bu zaman ərzində tərəflər danışıqlara davam edə və ya arbitraja razılıq verə bilərlər, lakin özünə yardım metoduna (tətillər və işçiləri kütləvi işdən qovmaq kimi) sığına bilməzlər. Bundan sonra əgər tövsiyələr hazırlaması üçün prezidentin yanında fövqəladə komissiya yaradılsa sakitləşmə dövrü müddətsiz uzadıla bilər. Bunlar rədd edilsə, sonuncu, 30 günlük sakitləşmə dövrü elan olunur.[80]

Razılaşmanın əldə edilməsini xüsusilə istəyən insanlar hər iki tərəflə əlaqələri olanlardır. Xoşuna gəlməsə də ən yaxşı qohum mübahisə zamanı öz qohumunun tərəfini tutmalıdır. Amma tərəflərdən hansısa birinə çox da yaxın olmayanlar mübahisədə tərəf tutanda kəskin şəkildə tənqid olunurlar. Bu sonuncu qrup demək olar istənilən formada razılığın əldə edilməsini istəyir.

Vasitəçi söz aparıb-gətirəndir. Amma o, təkcə mesaj ötürməklə məşğul olmur. Tərəflər razılıq əldə etməyə doğru getdikcə, vasitəçi aktiv şəkildə həmin razılığın formasını

müəyyənləşdirir. Vasitəçilər demək olar həmişə bunu edirlər. Yenə də Bartondan sitat verəcəm, çünki bu sitat hüquq antropologiyası ilə bağlı kitablarda tez-tez görünür.

“Dinc razılaşmanın sonlarında o, [vasitəçi] ifuqao diplomatiyasının hər incəliyindən istifadə etmiş olur. Dil tökür, şirnikləşdirir, tərifləyir, təhdid edir, istiqamətləndirir, danlayır, eyham vuraraq manipulyasiya edir. İki tərəfin də güzəştə getməyə razı olduğu məqama qədər şikayətçinin və ya prokurorun tələblərini rədd edir və təqsirləndirilən tərəfin təkliflərini dəstəkləyir.” Oyunun qaydası budur ki, ittiham edilən tərəf birinci dəfə razılığı rədd edir. Bunlar qürurlu insanlardırlar. Hətta açıq-aşkar səhv olduğu bilinən təqsirkarın belə bir müddət dikbaş olması gözlənilәndir.[81] O, biabır olmaqdan qaçır ki, sonradan üzü olsun. Bunlar mənim kimi adamlardırlar. Digər bir cəmiyyətdə “ittihamçının iddiaları çox güclü olsa və sövdələşmədə güc balansı onun xeyrinə olsa da, xoş niyyətli olmaq məqsədi ilə öz opponentinə qarşı tolerant davranıb az dərəcədə də olsa güzəştə gedir.”[82]

Lakin vasitəçi ittiham edilən tərəfin uzun müddət ağlabatan fikirlər səsləndirmədiyini düşünsə, o, formal şəkildə işdən imtina edə bilər. Növbəti iki həftə ərzində tərəflər və onların qohumları bir-biri ilə düşmənçilik edə bilməz. Atəşkəs bitdikdən sonra misilləmə – bura qisas qətlləri də daxildir – başlayır. Heç kim bunu istəməz. Adətən təqsirləndirilən tərəf təslim olur. Amma bu həmişə belə olmur. Yeni bir vasitəçi seçməklə də prosesə yenidən başlamaq olar. Lakin bu özü sonsuza qədər belə davam etmir. Başqa bir kitabda Ralf Barton təqsirləndirilən şəxsin öz arvadını tərk edib arvadının qohumlarına kompensasiya ödəməkdən imtina etdiyi bir işi qeyd edir. Kişi *dörd* vasitəçinin əldə etdiyi razılaşmanı rədd edib. Sonra şikayətçinin qohumu onu öldürüb. İttihamçının ailəsi bu barədə heç nə etməyib.[83]

İfuqaolar konfliktlərə təkcə bu yolla yanaşmırdılar. Ailədaxili fərdlər arasındakı ciddi cinayətlər (məsələn,

oğurluq və ya hətta qardaşlar arasındakı qətl) cəzalandırılmırdı. Mübahisələr ancaq qruplararası olur, qrupdaxili yox. Bir qrup özünü cəzalandıra, ya da özündən kompensasiya tələb edə bilməz. Bəzi başqa primitiv cəmiyyətlərdə də vəziyyət eynidir. Amma bu da doğrudur ki, hüquqi fəaliyyət göstərən dövlətli cəmiyyətlərdə də qanunun ən az təsirli olduğu yer bir-birinə yaxın olan [yəni "əlaqəli məsafəsi" az olan] insanlar arasındakı münasibəti tənzimləməkdir.[84]

Mübahisə tərəfləri arasındakı əlaqəli məsafə getdikcə lokal, az-çox üz-üzə sosial münasibət müstəvisindən çıxaraq sosial və coğrafi baxımdan bir-birinə uzaq insanları əlaqələndirdikcə burada təsvir etdiyim ifuqao vasitəçilik proseduru da öz təsirini itirir. (Elə də sülhpərvər xalq olmayan) ifuqaoları Ralf Barton xaricə yayılan dairəvi "müharibə zonalarını" tutan insanlar kimi təsvir edir. Mübahisə zonanın sərhədlərini aşdıqca daha da ciddiləşir və şiddət ilə həll edilməsi ehtimalı artır. Kənar zonada "mübahisə" sözü demək olar işlədilmir. Orada tanımadığın hər kəs düşməndir və görünən kimi öldürülməlidir. Şübhəsiz ki, ümumiyyətlə primitiv cəmiyyətlər vəziyyətin daha çox müharibəyə bənzədiyi qruplararası konfliktlərin həlli mexanizmini adətən qura bilməyiblər.

Amma yenə də, Birləşmiş Millətlər Təşkilatı, "beynəlxalq hüquq" və s. kimi şeylərə baxmayaraq dövlətlər də bu sahədə nəzərə çarpacaq dərəcədə uğursuz olublar. Onlar adətən mübahisələrin həlli üçün ortaq çıxış nöqtəsi tapa bilmirlər. Ən yaxın, ya da ən uzaq olanda problemi həll etmək bacarığımız da ən aşağı səviyyədə olur. "Hüquq və əlaqəli məsafə arasındakı münasibət əyrixətlidir;" "Hüquq yaxın insanlar arasında təsirsizdir, insanlar arasındakı məsafə artdıqca hüquqdan istifadə də artır, amma insanların tamam ayrı dünyalarda yaşadığı bir nöqtəyə çatanda azalır."[85] Kropotkin yazırdı ki, sakit son Viktoriya İngiltərəsində "ikiqat əxlaq anlayışı bəşəriyyətin bütün təkamülünü keçir və indi özünü qoruyur." O əlavə edirdi ki, avropalılar müəyyən dərəcədə

“bizim millət üzərində və qismən də digər millətlər üzərindəki həmrəylik – ən azından nəzəriyyədə – *ideyalarımızı* genişləndiriblərsə, biz öz millətlərimiz və hətta öz ailələrimiz daxilindəki həmrəylik *bağlarını* azaltdıq.”[86] 1914-cü ildə bir çox başqa düşünən insanlar kimi Kropotkin də beynəlxalq həmrəyliyin əslində necə zəif olduğunu kəşf edəndə şok keçirmişdi.

Bu məqalədəki başlıqda “ədalət” sözünü işlətdim. Ədalət deyəndə nəzərdə tutduğum şey əxlaqi dəyər kimi ədalət yox, (“cinayət ədaləti” ifadəsində olduğu kimi) sosial təsisat qismində ədalət idi. Platonun *Respublika*sından bəri filosoflar ədaləti dəyər kimi izah etməyə çalışaraq ona tərif vermək əvəzinə adətən ədaləti ədalətli təsisatlar kimi təsvir ediblər. Müasir siyasi fəlsəfədə yəqin ən təsirli və sözsüz ki, ən məşhur ədalət nəzəriyyəsi Con Roulzun irəli sürdüyü *ədalət düzgünlük kimi*dir. Bu nəzəriyyə fərdlər arasında düzgünlük haqqında yox, ədalətli siyasi cəmiyyət haqqındadır.[87] Roulza görə ədalət sosial ədalət deməkdir.[88] Fərdlərarası mübahisələrin ədalətli həlli ilə bağlı Roulzun deməyə sözü yoxdur, lakin ədalət dedikdə çox insanın ağlına birinci və adətən yeganə gələn şey məhz budur. Ceremi Valdron kimi post-Roulz filosoflar ədalət dedikdə “neytrallıq” (Roulz bu sözü kitabında istifadə etməmişdi) başa düşürlər.[89] Valdrona görə “neytrallıq” sözü üçüncü tərəfin iştirak etdiyi mübahisə həlli ilə məhdudlaşmasa da, əsasən ona şamil edilir: “üçüncü tərəfin neytrallığı onun digər iki tərəf arasındakı qarşıdurmaya olan münasibəti məsələsidir.”[90] Vurğu üçüncü tərəfin bitərəfliyinədir. Məhz bu onun qərarını düzgün edir.

Amma bu belədirmi? Heç “primitiv ədalət”də axtardığımız şey düzgünlükdürmü? İfuqao vasitəçisi neytral deyil. O, bitərəf deyil; hər iki tərəfə münasibətdə tərəflidir. O, cəmiyyətə münasibətdə tərəflidir. O, hakim deyil. Hansı tərəfin doğru, hansı tərəfin səhv olduğu barədə qərar vermir. O, heç nə barədə qərar vermir. O, başqa insanların maraqlarını da özündə ehtiva edən iki mübahisə tərəfi arasındakı problemi həll

etməyə çalışır. Hətta "düzgün" olmağa belə cəhd etmir. Günahın tamamilə bir tərəfdə olduğu hallarda kompromis (məziyyətinin nə olmasından asılı olmayaraq) düzgün deyil. Lakin vasitəçilikdə nəticə həmişə kompromis əsasında əldə edilir.

*Ədalət düzgünlük kimi* anlayışına uyğun olaraq vasitəçinin fəaliyyətini məncə iki yolla xarakterizə etmək olar. Bir yol budur ki, barışığa və ya sakitləşdirməyə hədəflənmiş vasitəçilik ədalətin fərqli, daha yaxşı formasıdır. Digər yol budur ki, uğurlu vasitəçiliyin nail olduğu şey hər nədirsə ədalətdən yaxşıdır. Bir anarxist kimi mənim üçün sülh və azadlıq ədalətdən daha vacibdir. Düşünürəm ki, azadlığın ədalətin yan təsiri ola bilməsindənsə, ədalət daha çox hallarda azadlığın yan məhsulu ola bilər.

**Çoxtərəfli mürəkkəb münasibətlər**

İndi bir qədər nəzəri yazacağam. Bu mübahisələrdə nəsə var ki, onları modern cəmiyyətlərdəki bir çox mübahisələr fərqləndirir. Modern şəhər cəmiyyətində mübahisədə adətən tərəflər arasında uzağı bir sosial münasibət mövcud olur. Hər bir tərəfin təkcə bir rolu olur. Məsələn, adətən sənin ev sahibin səni həm də kilsədən, ya da işdən tanımır. İşçin sənin qohumun olmur, Fillippin istisnadır. Ev sahibin sənin dostun olmur. Antropoloq Maks Qlukman bu münasibətlərə *bəsit münasibətlər* deyir.[91] Məsələn, ABŞ-da şəhərətrafında [suburban ərazilərdə] yaşayan insanların bir neçə ortaq sosial bağları olur və "hətta bu bağlar mövcud olsa da əksər suburban münasibətləri insanların həyatının sadəcə bir neçə hissəsini əhatə edir."[92]

Bir fərdin başqa biri ilə çoxtərəfli əlaqələri ola bildiyi kimi, onun bir-biri ilə münasibətləri olan insanlarla da münasibəti ola bilər. Meksikada hindu qəsəbəsini təsvir edən Laura Neyder yazır: "Çarpaz əlaqələr çoxlu fərdləri və ya qrupları bölərək bəzi üzvləri müxtəlif qruplarla əlaqələndirdiyi halda çoxlu fərdləri və qrupları bir yerə yığır. Qruplar arasındakı münasibətlərin çarpaz bağlanma

dərəcəsi qəsəbədəki balanslı müxalifət və ya fraksiyaların inkişafına təsir göstərir."[93] Mübahisədə hər iki tərəflə bağları olan adamların mübahisənin dinc həllində ümumi maraqlarından başqa şəxsi maraqları da olur. Çarpaz əlaqələr Yayla tonqaları arasında sakitləşdirici təsirə malikdir.[94]

Primitiv, yəni anarxist cəmiyyətlərdə mübahisəyə girdiyin adam sənin həyatında bir neçə rol oynaya bilər. Sənin çoxtərəfli mürəkkəb münasibətin var. Kimsə sənin qaynın, borcverənin, iş yoldaşın və qonşun ola bilər. Bu adam güman ki, gündəlik həyatında mütəmadi rastlaşdığın bir adamdır. Bu çoxtərəfli rollar konflikt vəziyyətlərini çoxalda bilər. Amma onlar həm də sizin hər ikinizi konflikti həll etməyə həvəsləndirir, çünki yəqin ki bütün bu münasibətlər birlikdə sizin mübahisə mövzunuzdan daha əhəmiyyətlidir. Və adətən məsələnin dinc yolla həll edilməsində maraqlı şəxslərin sayı da çox olur. Qlukman buna çoxtərəfli mürəkkəb münasibət deyir. O həm də iddia edirdi ki, mübahisə tərəfləri nə qədər çox ortaq fəaliyyətdədirlərsə, mübahisə də bir o qədər vasitəçi və barışdırıcı formada həll edilir.[95]

Göründüyü kimi burada bir paradoks var. Mürəkkəb cəmiyyətlərdə ən sadə münasibətlər, daha sadə cəmiyyətlərdə çoxtərəfli mürəkkəb münasibətlər üstünlük təşkil edir. Tonqa və ifuqao ərazilərində çoxlu çarpaz əlaqələr vardı. Hər iki tərəf ilə bağları olan insanlar çox idilər. Və qanun, ya da nizamı məcbur qəbul elətdirməyə dövlət də yox idi. Bunun əvəzində sosial təşkilat sülh əldə etmək üçün olduqca güclü səbəblər yaradırdı.

## 4. Mübahisə həlli formaları

Mübahisə nədir? Sosial elmlərdə alimlərin (hamısı tərəfindən olmasa da) bəzilərinin istifadə etdiyi tərifə əsaslanacam. Mübahisə şikayət [inciklik] ilə başlayır. Kimsə ona qarşı ədalətsizlik edildiyini hiss edir. O, şikayətini günahkar şəxsə deyə bilər. Məsələni ikisi həll edə bilər. Bu ana qədər məsələ tamamilə şəxsi müstəvidə qalır. Amma onlar razılığa

gələ bilməsələr və qurban məsələni ictimailəşdirsə, onda bu, mübahisə olur. Cəmiyyətdən asılı olaraq məsələni ictimailəşdirmək dedikdə polis çağırmaq, məhkəmə qarşısında iddia qaldırmaq, ya da sadəcə olaraq tanıdığın insanlara şikayət etmək nəzərdə tutula bilər.

Danışıqlar ikitərəfli mübahisə həlli formasıdır. Bu yəqin ki, hər yerdə mövcuddur. Amma bu hər problem üçün həll yolu deyil. İkitərəfli mübahisədə çıxılmaz vəziyyət yarana bilər. Gördüyümüz kimi üçüncü tərəfin iştirakı bir çox hallarda faydalıdır. Buradakı əsas məqsədim hökm ilə vasitəçiliyin fərqlərini göstərməkdir və vasitəçilik metoduna fokuslanıram. Anarxist cəmiyyətlər üçün vasitəçilik uyğundur. Hökm adətən dövlətli cəmiyyətlərdə olur. Lakin dövlətli cəmiyyətlərdəki hökm metodunun anarxist cəmiyyətlərdəki vasitəçilik metodundan daha yaxşı olması mübahisəli məsələdir.

Vasitəçiliyə hər şeydən əvvəl könüllü mübahisə proseduru kimi tərif verirəm. Mübahisə tərəfləri qərar yox, kömək üçün vasitəçiyə müraciət edirlər. Bu, başlıca olaraq qaydaların tətbiq edilməsi ilə maraqlanmır, lakin tərəflər qaydalara istinad edə bilərlər. Vasitəçinin məqsədi günahlandırmaq üçün adam tapmaq deyil, lakin tərəflər bir-birlərini bir çox məsələdə günahlandırırlar. Vasitəçilik metodunun ideal versiyası belədir. İfuqao vasitəçiliyi tamamilə saf deyil, çünki o tamam könüllülük əsasında qurulmayıb. Amma yenə də bu ABŞ-da sonradan vasitəçilik adı altında cəhd edilən metoddan daha safdır.

Hökm metoduna belə tərif verirəm ki, mübahisə (iş) məhkəmədə şikayətçi tərəfindən başladılır. Məhkəmə daimi, əvvəlcədən yaradılmış tribunaldır. Onun yurisdiksiyası icbaridir. Məhkəmədə işlə bağlı qərar çıxaran hakim tərəfləri tanımır və tərəflər arasındakı münasibəti (əgər varsa) bərpa etməkdə maraqlı deyil. Mübahisənin keçmişinin nə olması hakimin vecinə də olmur. Hakim həmin məsələləri nəzərə almamalıdır. O dövlətin qanunları əsasında qərar verir. Adətən əgər iş məhkəməyə çıxsa, hökm belə olur ki, cinayətdə kimsə

“günahkar,” ya da günahsızdır; və ya mülki işdə kimsə “səhv edib,” ya da etməyib. Adətən bir tərəf qalib gəlir, digər tərəf isə məğlub olur. Vasitəçilikdə isə qalib və ya məğlublar olmur.

Bu hökm metodunun ideal versiyasıdır. Mən bunu Amerika – və yəqin ki istənilən – hüquq sisteminin təsviri kimi tənqid edə bilərəm. Hökm metodu öz ideallarına çatmır. Lakin mən heç onun ideal versiyasını da bəyənmirəm. Bunun əvəzində mən iddiaya görə hüquqi reform qismində hökm sisteminə vasitəçilik əlavə ediləndə nələrin baş verə biləcəyini müzakirə etmək istəyirəm.

[1] Donald Black with M.P. Baumgartner, “Toward a Theory of the Third Party,” in Donald Black, *The Social Structure of Right and Wrong* (San Diego, CA: Academic Press, 1993), 110-115 (ilk dəfə 1983-cü ildə nəşr edilib).

[2] Düzü, arbitrajın həm könüllü, həm də könülsüz formaları var: “Arbitrajın nəticəsi icbari olmayanda arbitraj vasitəçiliyə bənzəyir. Arbitrajın nəticəsi icbari olanda, yəni tərəflərdən birinin tələbi ilə hər iki tərəf arbitraja getmək və arbitrajın nəticəsini qəbul etməklə mükəlləf olmayanda arbitraj adətən məhkəmə qərarına bənzəyir.” Martin Shapiro, *Courts: A Comparative and Political Analysis* (Chicago, IL & London: University of Chicago Press, 1981), 4.

[3] Simon Roberts, “The Study of Dispute: Anthropological Perspectives,” in *Disputes and Settlements: Law and Human Relations in the West*, ed. John Bossy (Cambridge: Cambridge University Press, 1983), 15.

[4] Laura Nader & Harry F. Todd, Jr., “Introduction: The Disputing Process,” in *The Disputing Process – Law in Ten Societies*, ed. Laura Nader & Harry F. Todd, Jr. (New York: Columbia University Press, 1978), 9-10. Kitabın adına (*Münaqişə Prosesi – On Cəmiyyətdə Qanun*) baxmayaraq, müəlliflər “bu proseslərin qanun, sosial nəzarət, yoxsa

'sadəcə olaraq' ənənə olması sualına" neytral yanaşırlar. Ibid., 8. Mən də daxil bir çox insan qanun (statist anlayış kimi) və ənənə (anarxist anlayış kimi) arasında kəskin fərqləndirmə aparır. Məsələn, Donald Black, *The Behavior of Law* (New York: Academic Press, 1976), 2 (qanuna "hökumətin sosial nəzarəti" kimi tərif verir); Stanley Diamond, "The Rule of Law versus the Order of Custom," in *The Rule of Law*, ed. Robert Paul Wolff (New York: Simon & Schuster, Touchstone Books, 1971), 116-17, reprinted in Stanley Diamond, *In Search of the Primitive: A Critique of Civilization (*New Brunswick, NJ: Transaction Books, 1974), 257-58; ibid., "The Search for the Primitive," 136-37.

[5] Edward B. Tylor, *Anthropology: An Introduction to the Study of Man and Civilization* (New York: D. Appleton & Co., 1907), 405.

[6] Jenny Wormald, "An Early Modern Postscript: The Sandlow Dispute, 1546," in *The Settlement of Disputes in Early Medieval Europe*, ed. Wendy Davies & Paul Fouracre (Cambridge: Cambridge University Press, 1986), 192. Aşağıda müzakirə edildiyi kimi, ciddi residivizm (qəsdən cinayət törətmiş şəxsin azad edildikdən sonra yenə qəsdən cinayət törətməsi – tərc.) dərəcəsindən göründüyü qədəri ilə dövlətin maliyyələşdirdiyi, guya könüllü olan prosedurlar adətən təsirsiz olur.

[7] Shapiro, *Courts*, 3.

[8] Bob Black, "Debunking Democracy," *Defacing the Currency: Selected Writings 1992-2012* (Berkeley, CA: LBC Books, 2012), 32 n. 75.

[9] Lysander Spooner, "No Treason. No. 6. The Constitution of No Authority," in *No Treason: The Constitution of No Authority and A Letter to Thomas Bayard* (Novato, CA: Libertarian Publishers, n.d.), 5: Herbert Spencer, *Social Statics* (New York: Robert Schaltenbach Foundation, 1954), 90; see Bob Black, *Nightmares of Reason* (2009-2015), ch. 17,

www.theanarchylibrary.org.

[10] David Hume, “Of the Original Contract,” *Essays: Moral, Political, and Literary*, ed. Eugene F. Miller (rev. ed.; Indianapolis, IN: Liberty Fund, [1987]), 465-487.

[11] *Məs.,* E. Colson, “Social Control and Vengeance in Plateau Tonga Society,” *Africa* 23(3) (July 1953), 199-200, reprinted as chapter 3 of Elizabeth Colson, *The Plateau Tonga of Northern Rhodesia: Social and Religious Studies* (Manchester, England: Manchester University Press, 1962); Diamond, “The Rule of Law versus the Order of Custom,” 135; R.F. Barton, *Ifugao Law* (Berkeley & Los Angeles, CA: University of California Press, 1969), “Preface” (n.p.) & 3 (ilk dəfə 1919-cu ildə nəşr edilib).

[12] *Məs*., A. Morfus, “Beyond Utopian Visions,” in *Uncivilized: The Best of Green Anarchy* (n.p.; Green Anarchy Press, 2012).

[13] P.H. Gulliver, “Case Studies of Law in Non-Western Societies: Introduction,” in *Law and Culture in Society*, ed. Laura Nader (Berkeley, CA: University of California Press, 1997), 21 (ilk dəfə 1969-cu ildə nəşr edilib).

[14] Donald Black, “The Elementary Forms of Conflict Management,” *Social Structure of Right and Wrong,* 83.

[15] Ibid., 14; Frank E.A. Sander, “Varieties of Dispute Processing,” in Roman M. Tomasic & Malcolm M. Feeley, eds., *Neighborhood Justice: Assessment of an Emerging Idea* (New York & London: Longman, 1982), 38 n. 4 (ilk dəfə 1976-cı ildə nəşr edilib); Richard E. Miller & Austin Sarat, “Grievances, Claims, and Disputes: Assessing the Adversary Culture,” Law & Society Rev. 15(3, 4) (1980-1981): 525-566.

[16] Amma bu, güman ediləndən daha geniş yayılıb. Donald Black, “Crime as Social Control,” in *Towards a General Theory of Social Control*, ed. Donald Black (Orlando, FL: Academic

Press, 1984), 2: 1-27, reprinted in *Social Structure of Right and Wrong*, 27-46; Black, "'Wild Justice': Crime as an Anarchist Source of Social Order," 233-267.

[17] Elijah Anderson, *Code of the Street: Decency, Violence, and the Moral Life of the Inner City* (New York: W.W. Norton & Co., 1999); Black, "Crime as Social Control."

[18] William L.F. Felsteiner, "Influences of Social Organization on Dispute Processing," in *Neighborhood Justice*, 54.

[19] M.P. Baumgartner, *The Moral Order of a Suburb* (New York & Oxford: Oxford University Press, 1988), 11.

[20] "Mediation – Its Forms and Functions," in *The Principles of Social Order: Selected Essays of Lon L. Fuller*, ed. Kenneth I. Winston (Durham, NC: Duke University Press, 1981), 133; see also *The Sociology of Georg Simmel*, ed. Kurt Wolff (New York: The Free Press, 1950), 118-169.

[21] Simon Roberts, *Order and Dispute: An Introduction to Legal Anthropology* (Oxford, England: Martin Robertson, 1979), 72.

[22] Gulliver, "On Mediators," 16, 46.

[23] W.L.F. Felstiner, Richard Abel, & Austin Sarat, "The Emergence and Transformation of Disputes: Naming, Blaming, Claiming . . . ," Law & Society Rev. 15 (1980-1981), 635-37.

[24] Felsteiner, "Influences of Social Organization on Dispute Processing," 48.

[25] *Social Workers and Alternative Dispute Resolution* (Washington, DC: National Association of Social Workers, 2014), 7.

[26] Shapiro, *Courts*, 1, 3.

[27] Roberts, *Order and Dispute*, 97.

[28] Napoleon A. Chagnon, *Yanomanö* (5th ed.; Belmont, CA: Wadsworth, 2009), 212.

[29] Richard Borshay Lee, *The !Kung San: Men, Women, and Work in a Foraging Society* (Cambridge: Cambridge University Press, 1979), 370-398; Roberts, *Order and Dispute*, 84. Narazılığın əsas səbəbi qısqanclıq idi. Elizabeth Marshall Thomas, *The Old Way: A Story of the First People* (New York: Farrar Straus Giroux, 2006), 169-70.

[30] Asen Balici, *The Netsilik Eskimo* (Garden City, NY: Natural History Press, 1970), 192-93.

[31] Lidio Cipriani, *The Andaman Islanders*, ed. & trans. D. Taylor Fox (New York & Washington, DC: Frederick A. Praeger, 1966), 43.

[32] Black, "Elementary Forms of Conflict Management," 80.

[33] Douglas P. Fry, "Conflict Management in Cross-Cultural Perspective," in *Natural Conflict Resolution*, ed. Filippo Aureli & Frans de Waal (Berkeley, CA: University of California Press, 2000), 336.

[34] Diamond, *In Search of the Primitive*, 368-69 n. 50.

[35] Frans de Waal, *Peacemaking among Primates* (Cambridge: Harvard University Press, 1989), 206.

[36] *Natural Conflict Resolution*, Appendix A, "The Occurrence of Reconciliation in Nonhuman Primates," 383.

[37] De Waal, *Peacemaking*, 241-42.

[38] Black, "The Elementary Forms of Conflict Management," 80; Albert O. Hirschman, *Exit, Voice, and Loyalty: Responses to Decline in Firms, Organizations, and States* (Cambridge: Harvard University Press, 1970), ch. 3 & *passim*.

[39] Baumgartner, *Moral Order of a Suburb*, ch. 3.

[40] Lee, *The !Kung San*, 398.

[41] Klaus-Friedrich Koch, "Pigs and Politics in the New Guinea Highlands," in Nader & Todd, *Disputing Process*, 41-58. Bu məqalə Klaus-Friedrich Koch, *War and Peace in Jalémó: The Management of Conflict in Highland New Guinea* (Cambridge: Harvard University Press, 1974)-dan götürülüb. Maraqlıdır ki, məşhur MakHoy/Hatfild qan davası da donuz üstündə başlamışdı. Black, "'Wild Justice,'" 252 & n. 45; Alina L. Walker, *Feud: Hatfields, McCoys, and Social Change in Appalachia, 1860-1900* (London & Chapel Hill, NC: University of North Carolina Press, 1988), 2-3.

[42] Roberts, *Order and Dispute*, 158.

[43] Sarah Rudolph Cole & Kristen M. Blankley, "Arbitration," in *The Handbook of Dispute Resolution*, ed. Michael L. Moffitt & Robert C. Bordone (San Francisco, CA: Jossey-Bass, 2005), 318-19; Roberts, *Order and Dispute*, 70-71, 135.

[44] A.S. Meyer, "Functions of the Mediator in Collective Bargaining," Industrial & Labor Relations Rev. 13 (1960), 164. "However the two processes have a way of shading into each other." Ibid.

[45] *Social Workers and Alternative Dispute Resolution*, 4-5; American Arbitration Association, "The Code of Ethics for Arbitration in Commercial Disputes," May 1, 2004, & idem; "Code of Professional Responsibility for Arbitrators of Labor Management Disputes," Sept. 2007, at htpps://www.adr.org.

[46] Carrie Menkel-Meadow, "Roots and Inspirations: A Brief History of the Foundations of Dispute Resolution," in *Handbook of Dispute Resolution*, 318.

[47] *Social Workers and Alternative Dispute Resolution*, 5; Michael L. Moffitt & Robert C. Bordone, "Perspectives on Dispute Resolution: An Introduction," *Handbook of Dispute Resolution*, 21.

[48] *In re* American Express Merchants' Litigation v. American Express, 634 F.2d 182 (2d Cir. 2011).

[49] Mandatory Binding Arbitration Agreements: Are They Fair for Consumers? hearing before the Subcommittee on Commercial and Administrative Law of the Committee on the Judiciary, House of Representatives, 110th Cong., 1st sess., June 12, 2007; Federal Arbitration Act: Is the Credit Card Industry Using It to Quash Legal Claims? hearing before the Subcommittee on Commercial and Administrative Law of the Committee on the Judiciary, House of Representatives, 111th Cong., 1st sess., May 5, 2009; Arbitration or Arbitrary: The Misuse of Mandatory Arbitration to Collect Consumer Debts: hearing before the Subcommittee on Domestic Policy of the Committee on Oversight and Governmental Reform, House of Representatives, 111th Cong., 1st sess., July 22, 2009; Mandatory Binding Arbitration: Is It Fair and Voluntary? hearing before the Subcommittee on Commercial and Administrative Law of the Committee on the Judiciary, House of Representatives, 111th Cong., 1st sess., Sept. 15, 2009; Arbitration: Is it Fair When Forced? hearing before the Committee on the Judiciary, U.S. Senate, 112th Cong., 1st sess., Oct. 13, 2011.

[50] Rent-a-Center West, Inc. v. Jackson, 561 U.S. 63, 72 (2010). "Rent-to-own" is one of the worst rackets for exploiting low-income consumers.

[51] David Horton & Andrea Camm Chandrasekher, "After the Revolution: An Empirical Study of Consumer Arbitration," Georgetown L.J. 104(1) (Nov. 2015), 124.

[52] Roberts, *Order and Dispute*, 163-64.

[53] Felsteiner, "Influences of Social Organization on Dispute Processing," 48; Kenneth I. Winston, "Introduction," *The Principles of Social Order*, 28-29.

[54] Sander, “Varieties of Dispute Processing,” 28.

[55] Black, “Toward a Theory of the Third Party,” *Social Organization of Right and Wrong*, 114.

[56] Fuller, “The Forms and Limits of Adjudication,” *Principles of Social Order*, 93-94.

[57] Goldberg v. Kelly, 397 U.S. 254, 271 (1969).

[58] Robert C. Davis, “Mediation: The Brooklyn Experiment,” *Neighborhood Justice,* 156.

[59] Donald L. Horowitz, *The Courts and Social Policy* (Washington, DC: The Brookings Institution, 1977), 45, 48. Onların tarixi faktları müəyyənləşdirməkdə çox yaxşı olub-olmaması məsələsi bildiyim qədəri ilə heç vaxt araşdırılmayıb.

[60] Jerome Frank, *Courts on Trial*: *Myth and Reality in American Justice* [*Məhkəmələr Məhkəmədə: Amerika Ədalətində Miflər və Reallıqlar*] (New York: Atheneum, 1963) (ilk dəfə 1949-cu ildə nəşr edilib).

[61] Nader & Todd, “Introduction,” 10.

[62] *Məs.*, James L. Gibbs, Jr., “The Kpelle Moot,” in *Law and Warfare: Studies in the Anthropology of Conflict,* ed. Paul Bohannan (Garden City, NY: The American Museum of Natural History, 1967), 282-83.

[63] “Bizə rolların ümidsizcəsinə qarışıq və qeyri-müəyyən kimi görünən şey yəqin ki, nə həmin rolun icraçısına [vasitəçi, *monkalun*], nə də onun qərarlarına tabe olanlara belə görünmür.” [Fuller,] “Mediation – Its Forms and Functions,” 156. Sözsüz ki, Fuller özünün Platonçu Formalarına [İdeyalarına] baxıb təkcə reallığı tapanda ümidsizcəsinə çaş-baş qalır. Laura Neyderin bir Meksika qəsəbəsi barədəki araşdırması “təkcə bir nəfərin, [yəni] prezidentin bir gün ərzində necə həm vasitəçi, həm arbitr, həm də hakim ola biləcəyini təsvir edir.” Nader & Todd,

“Introduction,” 10; bax, Laura Nader, *Harmony Ideology: Justice and Control in a Zapotec Mountain Village* (Stanford, CA: Stanford University Press, 1990), 122. Hakimlərin vasitəçi, ya da arbitr kimi fəaliyyət göstərdiyi bir çox vaxta və yerə dair çoxlu dəlillər var. *Məs.*, Nicole Castan, “The Arbitration of Disputes Under the ‘Ancien Regime,’” in *Disputes and Settlements,* 259-60. Hökmün “stili” cəza, kompensasiya, terapevtik, ya da vasitəçi xarakterli ola bilər. Donald Black, *The Behavior of Law* (New York: Academic Press, 1976), 4-5.

[64] Michel Foucault, “Truth and Power,” *The Foucault Reader*, ed. Paul Rabinow (New York: Pantheon Books, 1984), 61.

[65] Foucault, “Politics and Ethics: An Interview,” in ibid., 379.

[66] *The Settlement of Disputes in Early Medieval Europe*, “Conclusion,” 237. The Conclusion is unsigned.

[67] Gulliver, “On Mediators,” 16.

[68] Barton, *Ifugao Law*, 87, 88-89.

[69] Horowitz, *The Courts and Social Policy*, 24.

[70] “Dostyana sülhməramlılar adətən düşmənçilik edən tərəflərlə bərabər olduqları halda vasitəçilər, arbitrlar və hakimlər (bu ardıcıllıqla) tərəflərlə müqayisədə olduqca yüksək olurlar.” Black, “Elementary Forms of Conflict Management,” 86. Həmçinin bax, S. Golub, “Non-State Justice Systems in Bangladesh and the Philippines” (2003), Department for International Development (London), https://gsdrc.org/document-library/non-state-justice-systems-in-bangladesh-and-the-philippines/. ; “Small Claims Courts and Barangay Justice Advocates Collaborate to Resolve Disputes” (Oct. 2010),

https://www.americanbar.org/advocacy/rule_of_law/where_we_work/asia/philippines/news/news_philippines_barangay_justice_advoc

ates_coll borate_with_small_claims_courts_1010/.

[71] Vasitəçilik metodu ən səmərəli şəkildə eqalitarian cəmiyyətlərdə tətbiq edilə bilər; uğurlu ola bilmək üçün eqalitarian cəmiyyət bəzi sahələrdə bərabərsizliyə gətirib çıxarsa da, mükəmməlliyi təşviq etməlidir. Belə olduqda, cəmiyyət tam olaraq eqalitarian olmur və bu səbəbdən də vasitəçilik metodunu bu cəmiyyətə düşünərək, götür-qoy edərək gətirmək lazımdır (tərc.).

[72] Etnoqrafik mənbələrə istinadda hər dəfə səhifəni göstərməyəcəm. Mənbələrim bunlardır: E. Colson, “Social Control and Vengeance in Plateau Tonga Society”; Elizabeth Colson, *The Plateau Tonga of Northern Rhodesia: Social and Religious Studies* (Manchester, England: Manchester University Press, 1962) (the “Social Control” article is chapter 3, at 102-121); Elizabeth Colson, “The Plateau Tonga of Northern Rhodesia,” in *Seven Tribes of British Central Africa*, ed. Elizabeth Colson & Max Gluckman (Manchester, England: Manchester University Press, 1951), 94-162.

[73] Bax, Colson, “Social Control and Vengeance,” 204.

[74] Colson, “Social Control,” 199-200, 210-211.

[75] Barton, *Ifugao Law*; R.W. Barton, *Autobiographies of Three Pagans in the Philippines* (New Hyde Park, NY: University Books, 1963) (originally 1938); R.W. Barton, *The Half-Way Sun* (New York: Brewer & Warren, 1930); R.W. Barton, *The Kalingas:Their Institutions and Customary Law* (Chicago, IL: University of Chicago Press, 1949) (tam olaraq ifuqao haqqında olmasa da, onunla tez-tez müqayisə aparılır);  E. Adamson Hoebel, *The Law of Primitive Man: A Study in Comparative Legal Dynamics* (Cambridge & London: Harvard University Press, 2006), ch. 6 (ilk dəfə 1954-cü ildə nəşr edilib).

[76] Barton, *Autobiography*, 182.

[77] “*Monkalun* sözünün kökü *kalun*dur və *məsləhət* və *məlumat*

*vermək/bildirmək* mənasına gəlir. [Həm Azərbaycan, həm də ingilis dillərində bu ifuqao sözü iki mənada işlədilir], məsələn, “Sizə görüşünüzün vaxtını bildirirəm” və “Sənə bunu etməməyi məsləhət görürəm.” Barton, *Ifugao Law*, 87 n. 19.

[78] P.H. Gulliver, “On Mediators,” in *Social Anthropology and Law*, ed. Ian Hamnett (London: Academic Press, 1977), 33.

[79] Richard Sharpe, “Dispute Settlement in Medieval Ireland,” in *The Settlement of Disputes in Early Medieval Europe*, 180-81.

[80] 45 U.S.C. §§ 151-164, 181-188.

[81] Bu həmçinin XVI əsr Şotlandiyasında da belə idi. Problem bu idi ki, şərəf cəmiyyətində [yəni şərəfin çox əhəmiyyətli hesab edildiyi cəmiyyətdə] heç kim kompromisə getməyə çox həvəsli görünmək istəmirdi. Buna görə də çox hallarda belə bir sülh üçün ilk addım bu qan davasının ictimai həyatı təhlükəyə atacağından narahat olan qohumlar, dostlar və qonşular tərəfindən atılırdı.  Keith M. Brown, *Bloodfeud in Scotland, 1573-1625: Violence, Justice and Politics in an Early Modern Society* (Edinburgh, Scotland: John Donald Publishers Ltd., 1986), 45.  Həmin dövrdə Yuxarı və Aşağı Şotlandiyada qan davaları geniş yayılmışdı. Jenny Wormald, “The Blood Feud in Early Modern Scotland,” in *Disputes and Settlements*, 105-06.

[82] P.H. Gulliver, “Dispute Settlement Without Courts: The Ndeneuli of Southern Tanzania,” in *Law in Culture and Society*, ed. Laura Nader (Berkeley, CA: University of California Press, 1997), 67 (originally 1969).

[83] Hoebel, *The Law of Primitive Man*, 110-111.

[84] Black, *Behavior of Law*, 40-41.

[85] Black, *Behavior of Law*, 41 (vurğu silinmişdir).

[86] Peter Kropotkin, *Mutual Aid: A Factor of Evolution* (Boston, MA: Extending Horizons Books, 1960), 113 (vurğu əlavə

edilmişdir) (ilk dəfə 1902-ci ildə nəşr edilib). 3 mart 206-cı il tarixli məktubu ilə mənə bu kitabı yenidən oxumağı məsləhət gördüyü üçün Maykl Disneviçə təşəkkür edirəm.  Kropotkin belə hesab edirdi ki, adət hüququ olduğu üçün (bu iddia əslində tam olaraq doğru deyil) beynəlxalq hüquq özündə qarşılıqlı yardım və bərabərlik dəyərlərini ehtiva edir.  Peter Kropotkin, "A New Work on International Law," The Speaker (April 1, 1905), 7-8.

[87] John Rawls, *Justice as Fairness: A Restatement*, ed. Erin Kelly (Cambridge: Belknap Press of Harvard University Press, 2001); idem, *A Theory of Justice* (Cambridge: Harvard University Press, 1971), 3 ("Düşüncə sisteminin birinci fəziləti həqiqət olduğu kimi, ictimai təsisatların da birinci fəziləti ədalətdir").

[88] Ibid., 54.

[89] Jeremy Waldron, "Legislation and Moral Neutrality," *Liberal Rights: Collected Papers, 1981-1991* (Cambridge: Cambridge University Press, 1993), 144-45.

[90] Ibid., 145.

[91] Max Gluckman, *The Ideas in Barotse Jurisprudence* (2d ed.; New Haven, CT & London: Yale University Press, 1967), 19-20; Max Gluckman, *The Judicial Process Among the Barotse of Northern Rhodesia* (Manchester, England, UK: Manchester University Press, 1965), 5-6.

[92] "Bu cür əlaqələr adətən ya coğrafi qonşuluqdan, ya da eyni təşkilata üzvlükdən yaranır və yalnız nadir hallarda eyni yerdə işləməklə, ortaq mülkiyyətlə, qapalı sosial şəbəkədə iştirakla və ya iqtisadi qarşılıqlı asılılıq ilə güclənir." Baumgartner, *Moral Order of a Suburb*, 9.

[93] Nader, *Harmony Ideology*, 36 (quoted), 274.

[94] Maks Qlukman bunu "qan davasının sülhü" adlandırır. *Custom and Conflict in Africa* (Oxford: Basil Blackwell, 1956),

ch. 1. Lakin bu heç də həmişə belə olmur. Renato Rosaldo bir-biri ilə qan davasında olan iki qrupun ittifaq quraraq üçüncü bir qrupa hücum etməsini təsvir edir. *Ilongot Headhunting, 1883-1974: A Study in Society and History* (Stanford, CA: Stanford University Press, 1980), 273-74.

[95] Gluckman, *Judicial Process Among the Barotse of Northern Rhodesia,* 20-21.